**Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü Tofiq Həsənov 2009-cu il dekabrın 23- də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş İsmayılov Mübariz İsaq oğlunun və digərlərinin 29 dekabr 2009-cu il tarixli 256 saylı müraciətinin araşdırılmasına dair**

# R Ə Y İ

Bakı şəhəri 9 yanvar 2010-cu il, saat 15.30

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 111 saylı Zaqatala-Balakən seçki dairəsi üzrə Zaqatala bələdiyyəsinin üzvlüyünə namizəd İsmayılov Mübariz İsaq oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına ərizə ilə müraciət edərək, Zaqatala bələdiyyəsinə keçirilən seçkilər zamanı dairə və məntəqə seçki komissiyaları, yerli icra hakimiyyətinin və YAP rayon təşkilatının nümayəndələri tərəfindən qanunsuz hərəkətlərin edilməsini bildirmiş və qanunla müəyyən edilmiş qaydada tədbirlər görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 112, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimat" a uyğun tərtib edildiyindən araşdırmaya qəbul edilmişdir.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması məqsədilə, seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada araşdırma müddətinin uzadılması haqqında Mərkəzi Seçki Komissiyası qarşısında qaldırılmış vəsatət əsasında Mərkəzi Seçki Komissiyası araşdırmanın uzadılması haqqında qərar qəbul etmişdir.

Araşdırma nəticəsində dairə və məntəqə seçki komissiyalarının üzvüləri, seçilməmiş bələdiyyə üzvülüyünə namizədlər Günay Bayramova, Vəfa Süleymanova, Balaca Məmmədov, müşahidəçilər Qəhrəman Əhmədov, Turac Məmmədova, Araz Əliyev, Mövlud Qəhrəmanov, Aqil Nəsirov, Zöhra Qurbanova, Sevil Qazıyeva, Mahir Qasımov, Məmmədrəşid Musayev, Mahir Abdullayev, İlham Həsənov, Turan Əsədov, Şərqiyyə Muxtarova, Nazim Daftayev, Nail Muradov, Məmmədsalam Qurbanov, Kainat Rəhimova, Könül Abdullayevanın izahatlarından məlum olmuşdur ki, 111 saylı Zaqatala-Balakən seçki dairəsi üzrə Zaqatala bələdiyyəsinə seçkilər Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələbinə uyğun keçirilmiş, səslər müşahidəçilərin iştirakı ilə sayılmış maraqlı şəxslərə protokolların surətləri verilmiş DSK-nın yekun protokolu vaxtında tərtib olunmaqla 3-cü nüsxəsi

məlumat lövhəsindən asılmış, arzu edənlərə, o cümlədən ərizəçi Mübariz İsmayılova verilmişdir. Yerli icra hakimiyyəti və YAP rayon təşkilatının işçilərinin seçkilərə müdaxilə etməsi toplanmış sübutlarda öz təsdiqini tapmamışdır.

Beləliklə də, 111 saylı Zaqatala-Balakən seçki dairəsinin Zaqatala bələdiyyəsini əhatə edən seçki məntəqələrində səsvermə günü qanun pozuntularına yol verilməsi, həmçinin müvafiq dairə seçki komissiyasının hərəkətsizliyi ilə bağlı irəli sürülmüş iddialar öz təsdiqini tapmamışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və adıçəkilən Təlimatın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m**:

1. Vətəndaş İsmayılov Mübariz İsqa oğlunun 29 dekabr 2009-cu il tarixli 256 saylı müraciəti əsaslı olmadığından təmin edilməsin.

2. Rəy qəbul edildiyi andan 24 saat ərzində dərc edilsin (Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilsin) və surəti şikayətçiyə göndərilsin.

Azərbaycan Respublikası
Mərkəzi Seçk Komissiyası
nəzdində ekspert qrupunun üzvü Tofiq Həsənov